iki sahil 2020.- 13 oktyabr.- S.29.

# CƏBRAYIL: Qarabağın qapısı

**4 OKTYABR 2020-ci İL TARİXİNDDƏ ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN MÜJDƏSİNİ VERDİYİ CƏBRAYIL ŞƏHƏRİNİN 27 İLLİK ƏSARƏTDƏN SONRA İŞĞALDAN AZAD OLUNMASI ONU DEMƏYƏ ƏSAS VERİR Kİ, HƏR KƏSİN GÖZLƏDİYİ TARİXİ QƏLƏBƏYƏ AZ QALDI...**

**Azərbaycanımızın ən gözəl guşələrindən biri olan Cəbrayıl Araz çayı üzərindəki qədim Xudafərin körpüləri üzərindən keçən ticarət yollarının üstündə yerləşmişdir. Aran və Dağlıq Qarabağa, Azərbaycanın başqa vilayətlərinə aparan yollar da buradan başlayırdı. Buna görə də qədim səyyahlar buranı haqlı olaraq "Qarabağın qapısı" adlandırmışdılar.**

Qədim ticarət yollarının üzərində yerləşməklə bərabər Cəbrayılın zəngin və bərəkətli torpaqlara, saf və təmiz iqlimə malik olması tarixən bu bölgənin inkişafına, elmin, təhsilin tərəqqi etməsinə müsbət təsir göstərmişdir. Təsadüfi deyildir ki, Çar Rusiyası dönəmində Cəbrayıl uzun onillər boyu mahal mərkəzi kimi fəaliyyət göstərmişdir. Deyilənlərə görə, tanrı Cəbrayıldan heç bir şey əsirgəməmişdir. Saf iqliminə görə bir vaxtlar onu Soçiyə bənzədirdilər, buradakı bənzərsiz gözəlliyi ilə məşhur olan Sirik dağlarındakı meşələrdə hətta ümumittifaq səviyyəli pansionat və sanatoriyalar tikməyə başlamışdılar. Lakin Cəbrayıla şan-şöhrət gətirən onun təkcə qeyri-adi təbii gözəllikləri olmayıb. Onun uzaq keçmişimizə şahidlik edən çox sayda maddi-mədəniyyət abidələridir.

Cəbrayıl çox qədim bir yerdir. Burada az qala hər bir daşın, hər bir təpənin, hər bir bulağın öz tarixi, öz adı var. Saysız-hesabsız toponimləri ilə məşhur olan bu diyardakı kənd, yer-yurd adlarının tarixinə varanda bəlli olur ki, bu yerlər ta qədim zamanlardan türk tayfalarının yaşayış məskənləri olmuşdur. Cəbrayıl haqqında tarixi qaynaqlarda kifayət qədər geniş və dolğun faktlara rast gəlmək olur. Maraqlıdır ki, bir sıra türk tayfalarının tarixi hərəkat zamanı əsas dayaq nöqtələrindən biri də Cəbrayıl olub. Bir çox qədim türk adları Cəbrayılın dağ, düzən, dərə, kənd, arx və sair adlarına transformasiya olunub, dilimizin əbədi yaddaşına köçüb. Məsələn, Qır tayfası (Qıraxdın - rayonun əvvəlki adı olub), Tolos tayfası (Tulus kəndi), Qaz/qas (Qazanzəmi kəndi), Bəydili yer, arx adı və s.

Cəbrayılın ərazisindəki çox sayda və böyük tarixi əhəmiyyət daşıyan qədim maddi-mədəniyyət abidələri vardır. Onlardan bir neçəsinin adlarını çəkməyi özümə borc bilirəm: - Xudafərin körpüləri (XIII əsr), Xubyarlı və Şıxlar kəndlərindəki dairəvi türbələr (XVI əsr), rayon mərkəzindəki Sultan Allahverdi hamamı (XVII əsr) və sair. Cəbrayılın rəmzi isə əlbəttə, Xudafərin körpüləri sayılır. Bu möhtəşəm tarixi mədəniyyət abidəsi Cəbrayılın Qumlaq kəndi yaxınlığında Araz çayı üzərində hələ 8 əsr əvvəl ucaldılaraq Azərbaycanın quzey və güneydəki əyalətlərini bir-biri ilə birləşdirib. Tarixçilər yazır ki, Şah İsmayıl Xətai 1399-cu ilin sonuna yaxın özünə yaxın şamlı, qacar, əfşar, ustaclı, təkkəli və başqa türkdilli tayfalardan topladığı 7 minlik qoşunu ilə Xudafərin körpülərindən keçərək indiki Cəbrayıl ərazisinə daxil olmuş, məhz buradan vahid Səfəvi dövləti yaratmaq məqsədi ilə Şirvana yürüş etmişdir. Maraqlıdır ki, Cəbrayıl ərazisində Səfəvilər sülaləsinin banisi ilə bağlı olan bir sıra tarixi yerlər mövcuddur.



Cəbrayıl rayonu Azərbaycan Respublikasının cənubunda Kiçik Qafqaz dağlarının qoynunda yerləşir. Cənub tərəfdən İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir. Cəbrayıl rayonu ilə Bakı arasında olan məsafə 338 kilometrdir. Cəbrayıl rayonunun adı rayonun mərkəzi olan Cəbrayıl kəndinin adından götürülüb. Cəbrayıl kəndinin əsasını qoymuş Cəbrayıl ata VIII əsrdə yaşamış Sultan Əhməd adlı bir hökmdarın yaxın adamlarından biri olub. Ziyarət dağından Araz çayına qədər ərazilər Cəbrayıl ataya və onun övladlarına məxsus olub.

Cəbrayıl rayonunun ərazisi sement, mərmər, mişar daşı və digər qiymətli tikinti materialları ilə zəngindir. Dəmir filizi, hətta neft yataqlarının olduğu da məlumdur. Əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul olurdu. Elmin, mədəniyyətin, maarifin inkişafı yüksək səviyyəyə çatmışdı. Rayonda 510 çarpayılıq xəstəxanalarda 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi çalışırdı. Rayon Tarix-diyarşünaslıq muzeyində 20 mindən yuxarı eksponat vardı. Rayonda 8 sənaye müəssisəsi, 42 kolxoz, Quşçuluq fabriki fəaliyyət göstərirdi.

Azərbaycanda eramızın I əsrindən yaradılmış kəhriz şəbəkəsindən Cəbrayılda daha geniş şəkildə istifadə olunurdu. Respublikamızda olan 813 kəhrizin 118-i Cəbrayılın payına düşür. O cümlədən rayonda 360-dan çox dişgöynədən, təbii minerallarla zəngin bulaqlar vardır. Cəbrayıl rayonunun ərazisi maddi və mədəni abidələrlə zəngindir. Bunlardan Dağtumas kəndi yaxınlığında yerləşən "Divlər Sarayı" mağarası, Qalacıq kəndindəki "Məscid Təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanları, Diri dağındakı Mazannənə, Mərmər nənə məqbərələri kimi arxeoloji, Dağtumas kəndindəki "Başıkəsik Gümbəz", Sirik kəndindəki "Qala", Diri dağındakı "Qız qalası", Xudafərin körpüləri, Çələbilər kəndindəki Məscid kompleksi, rayon mərkəzindəki "Sultan Məcid hamamı", Şıxlar kəndindəki "Dairəvi Türbə", Xubyarlı kəndindəki "Dairəvi" 8 guşəli türbələr və məqbərələr, türk qəbiristanlığındakı türbə və məqbərələrin hər biri nəsildən-nəslə ötürülmüş canlı tarixdir. Rayonun ərazisində çoxlu yazılı abidələr var ki, bunlardan da Ağoğlandakı Orxan yazılı abidəsi xüsusilə qiymətlidir.

Xatırladaq ki, Cəbrayıl rayonu 1993-cü il avqust ayının 23-də əzəli və əbədi düşmənlərimizin tapdağı altına keçmişdi. 1050 kv km-i əhatə edən 52000 nəfər əhalisi olan rayon ərazisi və bu ərazilərdə birlikdə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd büsbütün ermənilərin işğalına məruz qaldı, vəhşicəsinə dağıdıldı. Qarabağ müharibəsində 362 nəfər şəhid olmuş, 191 nəfər əlil olmuşdu. 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Nəhayət ki, 4 oktyabr 2020-ci il tarixində Ali Baş Komandan İlham Əliyevin müjdəsini verdiyi Cəbrayıl şəhəri 27 illik əsarətdən sonra işğaldan azad olundu və yenidən Azərbaycan torpaqlarına birləşdirildi. Cəbrayıl həm də 2014-cü ildə dədə-baba yurdunu ziyarət edərkən, erməni cəlladları tərəfindən qətlə yetirilən Həsən Həsənovun doğulduğu torpaqlardır. Cəbrayılın işğaldan azad olunduğu 4 oktyabr isə H.Həsənovun torpağa tapşırıldığı gündür...

"Vətən müharibəsi" adlandırdığımız bu savaşda böyük uğurlar əldə edən Azərbaycan Ordusu addım-addım irəliləyərək işğal altında olan ərazilərimizi təmizləməkdə davam edir. Xalqımız bir daha əmin olmalıdır ki, düşmənə sipər olan igid, qorxmaz və qəhrəman hərbçilərdən ibarət qüdrətli ordumuz xalqın həmrəyliyi, mənəvi dəstəyi ilə bu Vətən müharibəsində mütləq qələbə çalacaq. Azərbaycan xalqının Ali Baş Komandana, Ordumuza etimadı sonsuzdur. Xalqımız ordumuza, Silahlı Qüvvələrin Ali Baş Komandanına inanır, etibar edir, rəğbət bəsləyir və onu qəlbən sevir. Dünyanın hər yerində həyata keçirilən Ordumuza dəstək aksiyası və könüllü olaraq ordu sıralarına yazılmaq və ərazi bütövlüyümüz uğrunda döyüşlərə qatılmaq istəyənlərin sayı da buna əyani sübutdur.

✍ **Sevinc Azadi,**
***"İki sahil"***